**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RƏNA QƏZƏNFƏR qızı RƏCƏBLİ**

# AZƏRBAYCAN ETNOQRAFİYASI M.S.ORDUBADİ YARADICILIĞINDA

5102.01 - Etnoqrafiya və etnologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Teymur Əmiraslan oğlu Bünyadov**
AMEA-nın həqiqi üzvü,
tarix üzrə elmlər doktoru, professor,
əməkdar elm xadimi

**Rəsmi opponentlər:** **Fəzail İmran oğlu Vəliyev**
tarix üzrə elmlər doktoru, professor

**Qəzənfər Məhəmməd oğlu Paşayev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** Milli Azərbaycan Tarixi Muzeyi
"Etnoqrafiya elmi fondu" şöbəsi

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5102.01-Etnoqrafiya və etnologiya) dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "___" "_______" 2018-ci il tarixli iclasında saat "____" də keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" _________ 2018-ci ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
***tarix üzrə fəlsəfə doktoru***

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalqının məişət və mədəniyyətinin tədqiqində şair və yazıçılarımızın əsərlərinin özünəməxsus yeri vardır. Xalqımızın həyatında ciddi tarixi dəyişikliklərin baş verdiyi dönəmlərin şahidi olan, siyasi, iqtisadi, sosial, mədəni hadisələri öz əsərlərində əks etdirən şair və yazıçıların, ədiblərin, publisistlərin yaradıcılığının öyrənilməsi aktuallıq daşıyır. Bu baxımdan XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid müxtəlif məzmunlu əsərlər tarix və ədəbiyyatla yanaşı, etnoqrafiya elminin də tədqiqat obyektidir. Həmin dövrdə yazılmış əsərlərdə Azərbaycan xalqının təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, ailə məişəti və s. məsələlərə dair saysız-hesabsız faktlar, zəngin məlumatlar öz əksini tapdığına görə onlar qiymətli etnoqrafik mənbə sayılır.

Azərbaycan xalqının etnoqrafiyasının öyrənilməsində görkəmli yazıçı Məmməd Səid Ordubadinin yaradıcılığının müstəsna yeri vardır. M.S.Ordubadinin çoxsaylı əsərləri yüksək ədəbi-bədii dəyəri olmaqla yanaşı, Azərbaycan etnoqrafiyasının öyrənilməsi baxımdan maraq doğurur. Onun əsərlərində xalqımızın təsərrüfatı, maddi və mənəvi mədəniyyəti, ailə və nikah münasibətləri və s. məsələlərə dair zəngin məlumatlar öz əksini tapmışdır. Bu etnoqrafik məlumatlar təkcə təsviri xarakter daşımamış, dərin izahlarla oxucuya çatdırılmışdır.

XX əsr Azərbaycan ədəbiyyatının, milli mətbuatının, eləcə də ədəbi dilimizin inkişafında xüsusi rolu olan M.S.Ordubadinin fəaliyyəti və yaradıcılığı həmişə yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli yazıçı, şair, dramaturq, publisist və ictimai xadim Məmməd Səid Ordubadinin 140 illik yubileyinin keçirilməsini nəzərdə tutan 2012-ci il 10 aprel tarixli sərəncamda deyilir: “Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. Çoxşaxəli ədəbi fəaliyyət göstərən və bir çox məşhur operaların librettosunun müəllifi olan sənətkar dövrün mühüm ictimai-siyasi hadisələrini zəngin faktlar, sənədlər əsasında dolğun əks etdirən əsərləri ilə

tanınır”[1]. Azərbaycan ədəbiyyatında, ictimai həyatda bir sıra yeniliklərin müəllifi olan M.S.Ordubadinin ən kiçik həcmli felyetonlarından tutmuş, tarixi romanlarınadək bütün əsərlərində Azərbaycan xalqının ictimai-siyasi həyatı, maddi-mənəvi mədəniyyəti və etnoqrafiyası canlandırılır.

Ədəbi fəaliyyətə publisist kimi başlayan Məmməd Səid Ordubadi (1872-1950-ci illər) 1906-1907-ci illərdə özünün “Vətən və hürriyyət”, “Qəflət” adlı ilk şeir məcmuələrini və “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab” romanını nəşr etdirmişdir. Bu əsərlər etnoqrafik materialların bolluğu baxımından çox maraqlı mənbələrdir.

Çoxsaylı əsərlərin müəllifi olan M.S.Ordubadinin yaradıcılığı indiyədək etnoqrafik baxımdan öyrənilməmişdir. Dövrün reallıqlarının M.S.Ordubadinin yaradıcılığında, ictimai-siyasi və jurnalist fəaliyyətində əks olunduğunu nəzərə alsaq, onun əsərlərində xalqımızın təsərrüfat həyatının, ailə və ailə məişətinin, maddi-mənəvi mədəniyyətinin etnoqrafik təsvirinin və izahının öyrənilməsi aktuallıq daşıyır.

M.S.Ordubadi əsərlərində əsl xalqşünas, etnoqraf kimi, Azərbaycan xalqının həyat tərzinin təsvirçisi kimi çıxış edir. Keşməkeşli, mübarizələrlə dolu həyatı Ordubadini geniş dünyagörüşlü qələm ustasına çevirmişdir.

Onun əsərlərini oxuyanda xalq həyatını dərinliklərinə qədər bilən müdrik bir ağsaqqalın, xalqın dərdinə yanan, milli inkişafı arzulayan ziyalı obrazı gözümüzün önündə canlanır. M.S.Ordubadinin yaradıcılığını, ədəbi-bədii irsini tədqiqata cəlb etməklə, dövrün maddi və mənəvi dəyərlərini araşdırmaq, əsərlərindəki etnoqrafik məlumatları təhlil etmək mühüm elmi-praktiki əhəmiyyətə malikdir.

M.S.Ordubadi yazılarında təkcə yazıçı, publisist kimi deyil, eyni zamanda sanki uzunmüddətli müşahidə aparan etnoqraf, bəzən

---

[1] Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı /“Azərbaycan” qəzeti, 2012-ci il, 11 aprel

isə etnoqrafik materialları nəql edən, təsvir edən informator kimi çıxış edir. Onun əsərlərində bir şəxs, bir ailə ilə yanaşı, kəndin, şəhərin, bölgənin, ölkənin etnoqrafik mənzərəsini görmək mümkündür.

XX əsrin əvvəllərində Azərbaycan milli mətbuatının inkişafı ictimai-siyasi dünyagörüşün inkişafına ciddi təkan verməklə yanaşı, şairlərimizin, ədib və yazıçılarımızın formalaşmasında, tanınmasında mühüm mərhələ olmuş, milli azadlıq ideyalarının, milli şüurun, maarifçiliyin inkişafında danılmaz rol oynamışdır. Bu baxımdan XIX əsrin sonu - XX əsrin əvvəllərini etnoqraf yazıçılar-publisistlər nəslinin yetişməsi ilə xarakterizə etmək mümkündür. M.S.Ordubadi məhz bu nəslin ən parlaq nümayəndələrindən biri idi.

M.S.Ordubadinin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatının enişli-yoxuşlu inkişafını göstərməklə yanaşı, bu dövrdə milli etnoqrafiyamızda baş verən dəyişikliklərin güzgüsü funksiyasını yerinə yetirir.

M.S.Ordubadinin yaradıcılığında XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatı üçün xarakterik olan etnoqrafik istiqamət özünü daha aydın göstərir. Onun əsərlərində ictimai münasibətlər, qadın azadlığı, ailə və ailə-nikah münasibətləri, təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyət məsələləri öz əksini tapmışdır. Məmməd Səid Ordubadinin qələmindən çıxan kiçik həcmli əsərləri, o cümlədən felyetonları da xüsusi qeyd etmək lazımdır. Felyetonlar dövrün gündəlik etnoqrafik mənzərəsini təsvir və ya təsəvvür etmək baxımından maraq doğurur.

Bütün xalqların, o cümlədən Azərbaycan xalqının etnoqrafiyası istənilən siyasi konyukturanın fövqündə dayanır. Siyasi konyuktura, elm və texnikanın inkişafı xalqın məişətinə, mədəniyyətinə təsir göstərə bilər, lakin tarixi etnoqrafiyanın dərindən öyrənilməsi kənar təsirlərin rolunu zəiflədir. Bu baxımdan M.S.Ordubadinin əsərlərinin tarixi etnoqrafik cəhətdən tədqiqata cəlb olunması aktuallıq daşıyır.

M.S.Ordubadinin ədəbi-bədii yaradıcılığını həm xronoloji, həm də məzmunca iki dövrə ayırmaq mümkündür. Birinci dövr onun "Şərqi-Rus" qəzetində şeirlərini nəşr etdirməsindən 1920-ci ilədək olan dövrdür. İkinci dövr isə 1920-ci ildən ömrünün sonunadək ədəbi-bədii yaradıcılığını əhatə edir. Onun yaradıcılığında xalqın

həyat tərzi, maddi və mənəvi mədəniyyət, ailə məişəti, milli təlim-tərbiyə və s. məsələlər öz əksini tapmış, poetik təsvir, yazıçı müşahidəsi və təxəyyülü Azərbaycan xalqının etnoqrafiyasını canlandırmışdır.

Məmməd Səid Ordubadi uzun müddət bir sıra qəzet və jurnallarda məsul redaktor, Azərbaycan Radio Verilişləri komitəsində ədəbi-bədii verilişlər üzrə redaktor vəzifələrində çalışır, "Koroğlu", "Nərgiz" və s. operaların librettosunu qələmə alır, elmi, publisistik və əlbəttə, bədii yaradıcılıqla məşğul olur, tarixi romanlarını yazır. Eyni zamanda M.S.Ordubadi türk dilləri arasında ən mükəmməli sayılan müasir orfoqrafiyamızın formalasmasında mühüm rol oynamışdır.

M.S.Ordubadi Azərbaycan ədəbiyyatında bir sıra janrların yaradıcısı kimi tarixə düşmüşdür. O, 1933-1948-ci illərdə dörd cildlik "Dumanlı Təbriz" adlı roman-epopeyasını yaradaraq tarixi roman janrının əsasını qoymuşdur. Eyni zamanda ədib "Qanlı illər" (1911), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), "Qılınc və Qələm" (1946-1948) adlı tarixi romanların da müəllifidir.

Bütün əsərlərində Məmməd Səid Ordubadi xalqın həyatının, adət-ənənələrinin tədqiqi məsələsinə xüsusi önəm verirdi. Onun "Dumanlı Təbriz" əsərində amerikalı missis Hannanın dilindən dedikləri maraq doğurur: "Müstəmləkə ediləcək bir ölkənin əvvəlcə adət-ənənəsi, dini, məfkurəsi, təriqəti öyrənilir, xalqın əhval ruhiyyəsi yoxlanılır, əqidələrin kütlə üzərində təsiri tədqiq edilir, bunlara əsasən də həmin ölkənin müstəmləkə planları tərtib edilir"[2]. Bu fikirlər görkəmli yazıçı, tarxi romanların müəllifi, publisist, ictimai xadim M.S.Ordubadinin xalqın öyrənilməsində etnoqrafik biliklərə verdiyi önəmin bədii dillə ifadəsidir. O, yaradıcılığı boyu xalqın həyatını canlandıraraq kitab səhifələrinə gətirmiş, Azərbaycan xalqının maddi-mənəvi mədəniyyətini, təsərrüfat həyatını, ailə məişətini, dünyagörüşünü və s. yaşatmış, nəsillər arasında varisliyin qorunub saxlanmasına çalışmışdır. Bu baxımdan M.S.Ordubadinin

---

[2] Ordubadi M.S. Dumanlı Təbriz. Roman. İki kitabda. Birinci kitab. Bakı: Yazıçı, 1985, səh. 196

zəngin etnoqrafik irsinin tədqiqi müasir dövrdə də aktuallığını saxlayır.

**Tədqiqatın xronoloji çərçivəsi**. Əsərin xronoloji çərçivəsi XIX əsrin sonu – XX əsrin əvvəllərini əhatə etsə də, M.S.Ordubadinin yaradıcılığında əks olunan orta əsr Azərbaycan etnoqrafiyasına dair materiallar da elmi-etnoqrafik tədqiqata cəlb edilmişdir. Dissertasiyada elmi etnoqrafik ədəbiyyatın və tədqiqatların nəticələrinə əsaslanaraq, eləcə də tarixi hadisələr müstəvisində M.S.Ordubadinin yaradıcılığında ailə və ailə məişəti, maddi və mənəvi mədəniyyət məsələləri elmi-etnoqrafik baxımdan öyrənilmişdir.

Onun əsərləri müasir Azərbaycan Respublikası, Cənubi Azərbaycan, tarixi Azərbaycan torpaqları, işğal altındakı torpaqlarımıza aid etnoqrafik materiallar bütövlükdə Azərbaycan etnoqrafiyasına dair materiallara fasiləsiz zaman və vahid məkan baxımından yanaşmağa imkan vermişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiyanın mənbə bazasını M.S.Ordubadinin şeirlərinin, felyetonlarının, hekayələrinin, povest və romanlarının tədqiqata cəlb edilməsi təşkil edir. Ədibin yaradıcılığının tədqiqində 1964-cü ildə çap olunmuş əsərlərinin səkkiz cildliyi xüsusi yer tutur. Onun nisbətən kiçik həcmli əsərləri - şeirləri, felyetonları və hekayələri əsasən birinci cilddə toplanmışdır.

Dissertasiyada ədibin pyesləri, “Dumanlı Təbriz”, “Qılınc və Qələm”, “Qanlı illər”, “Döyüşən şəhər”, “Gizli Bakı” adlı tarixi romanları etnoqrafik tədqiqata cəlb edilmişdir.

Görkəmli ədibin altmış ilə yaxın davam edən ədəbi fəaliyyəti dövründə 6000 minə qədər əsər yazması, o cümlədən 4000 felyetonun, 1800 məqalənin müəllifi olması onun yaradıcılıq aləminin miqyasını aydın təsəvvür etməyə imkan verir. Ordubadinin 1964-1967-ci illərdə nəşr olunan səkkizcildliyi yazıçının əsas əsərlərini əhatə edir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra M.S.Ordubadinin bir sıra əsərləri işıq üzü görmüş, bəziləri isə təkrarən çap edilmişdir. Buna baxmayaraq arxivlərdə saxlanılan və ya XX əsrin birinci yarısının dövri mətbuatında çap olunmuş əsərlərinin bir hissəsi hələ ki, kitablara çevrilməmişdir.

Tədqiqat zamanı bu əsərlərin mütləq əksəriyyəti etnoqrafik tədqiqata cəlb olunmuşdur.

Dissertasiyada üçcildlik "Azərbaycan etnoqrafiyası"nda ayrı-ayrı etnoqrafların əsərləri, akademik T.Bünyadov, Q.Rəcəbli, A.Mustafayev, F.Vəliyev, Ş.Bünyadova, Q.Qeybullayev, H.Qədirzadə, Ş.Quliyev, Q.Cavadov, H.Həvilov, T.Babayev, T.Kərimov, B.Əliyev, Ə.Əliyev, V.Əhmədova, Ə.Əsgər, İ.Məmmədova, Ş.Nuruzadə və başqa etnoqrafların, ədəbiyyatşünaslardan - Y.Axundlu, N.Bağırova, M.Əkbər, F.Vəzirova, H.Ənvəroğlu, İ.Həbibbəyli, Q.Xəlilov, A.Məmmədli, Ə.Məmmədov, Ə.Mirəhmədov, Y.Rzayev, V.Yusifli və başqalarının əsərlərinə müraciət edilmişdir.

Yeddicildlik "Azərbaycan tarixi" ilə yanaşı, din tarixi üzrə Z.Bünyadov, N.Vəlixanlı, S.Onullahi, XIX-XX əsrin əvvəllərinin tarixi üzrə V.Arzumanlı və N.Mustafa, V.Əhməd, T.Əzizov, mətbuat tarixi üzrə A.Aşırlı, E.Məhərrəmov və başqalarının əsərlərinə də müraciət olunmuşdur. Dissertasiyada müəllifin topladığı çöl etnoqrafik materialları, dövrü mətbuat materialları da öz əksini tapmışdır.

**Mövzunun öyrənilmə dərəcəsi.** Azərbaycan etnoqrafiyasında bir sıra şair və yazıçıların, mütəfəkkirlərin əsərləri tədqiq edilmişdir. Tarixçi-etnoqraflardan Şirin Bünyadovanın "Nizami və etnoqrafiya", Esmira Cavadovanın "Həsən bəy Zərdabinin etnoqrafik görüşləri", Həqiqət Zahidovanın "Azərbaycan etnoqrafiyası Cəfər Cabbarlı yaradıcılığında", Rəna İbrahimovanın "Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında etnoqrafik görüşlər", Mehparə Əliyevanın "Cəlil Məmmədquluzadə yaradıcılığında xalq məişəti", Fəzail Vəliyev və Rəşad Əfəndiyevin "Səməd Vurğun və Azərbaycan etnoqrafiyası" əsərlərində Azərbaycanın görkəmli ədib və mütəfəkkirlərinin yaradıcılığındakı etnoqrafik məsələlər haqqında ətraflı məlumat verilir və geniş təhlil edilir.

Məmməd Səid Ordubadinin yaradıcılığı indiyədək əsasən ədəbiyyatşünaslıq baxımından öyrənilmişdir. Bura həm yazıçının ayrı-ayrı əsərlərinin tədqiqi, həm də bütövlükdə onun yaradıcılığının öyrənilməsi aiddir. Azərbaycan ordubadişünaslığı ədəbiyyatşünaslardan Y.Axundlu, F.Vəzirova, M.Əkbər, N.Bağırova, N.Səmədova və

başqalarının tədqiqatlarından ibarətdir. Y.Axundlunun 2007 və 2012-ci illərdə nəşr etdirdiyi “Məmməd Səid Ordubadi” monoqrafiyası müstəqillik dövründə ədibə həsr olunmuş böyük monoqrafik tədqiqatdır. Y.Axundlunun 30 ildən çox Ordubadinin həyat və yaradıcılığı, ədəbi şəxsiyyəti ilə bağlı araşdırmaları ayrı-ayrı məqalələrdə, namizədlik və doktorluq dissertasiyalarında, eləcə də “Azərbaycan sovet tarixi romanı” (1979), “Tarix və roman” (1988) monoqrafiyalarında öz əksini tapmışdır. Y.Axundlu “Məmməd Səid Ordubadi” monoqrafiyasında indiyədək ədəbiyyatşünasların diqqətindən kənarda qalmış və az öyrənilmiş “Həyatım və mühitim” adlı xatirəsi, “İki cocuğun Avropaya səyahəti” adlı romanı, “Qrenadanın süqutu” tarixi dramı, “Qanlı sənələr” kimi aktual əsəri və Əlyazmalar İnstitutunda saxlanan, çap olunmamış yazıları barədə məlumat vermişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin başlıca məqsədi M.S.Ordubadinin yaradıcılığında təsvir olunan Azərbaycan etnoqrafiyasının - ailə və ailə məişətinin, mənəvi mədəniyyətinin, təsərrüfat məişətinin və maddi mədəniyyətinin müxtəlif məsələlərini digər etnoqrafik və yazılı mənbələrlə müqayisəli təhlil edərək sistemləşdirmək, orta əsrlər, XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid Azərbaycan etnoqrafiyasına dair ümumiləşmələr aparmaqdır. Bu məqsədlə dissertasiyada aşağıdakı məsələlərin tədqiqinə, təhlilinə diqqət yetirilmişdir:

-M.S.Ordubadinin yaradıcılığında əksini tapan ailə və ailə məişətini - qadın azadlığı, nikah, toy, ailədaxili münasibətlər, uşaq tərbiyəsi, dəfn adətlərini etnoqrafik baxımdan təhlil etmək;

-M.S.Ordubadinin yaradıcılığındakı mənəvi mədəniyyət məsələlərini xalq bayram və mərasimləri, oyun və əyləncələr, din və dinə münasibət, musiqi, milli və ictimai inkişaf məsələlərini etnoqrafik baxımdan araşdırmaq;

-M.S.Ordubadinin yaradıcılığında əksini tapan maddi mədəniyyət məsələlərini yaşayış məskənləri və evləri, geyim və bəzəklər, nəqliyyat vasitələrini etnoqrafik baxımdan araşdırmaq;

-M.S.Ordubadinin yaradıcılığında əksini tapan etnoqrafik materialları digər etnoqrafik mənbə və materiallarla müqayisəli şəkildə ümumiləşdirərək elmi baxımdan şərh etmək;

-M.S.Ordubadinin ədəbi yaradıcılığı ilə yanaşı, jurnalistika-publisistika fəaliyyətinin XX əsrin əvvəllərində Azərbaycan etnoqrafiyasının təsvirində yerini müəyyənləşdirmək;

-M.S.Ordubadinin əsərlərində müasir Azərbaycan Respublikası, Cənubi Azərbaycan, tarixi Azərbaycan torpaqları, işğal altındakı torpaqlarımıza aid etnoqrafik materialları azərbaycançılıq, millilik, xəlqilik baxımından şərh etmək.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını ulu öndər Heydər Əliyev tərəfindən əsaslandırılmış azərbaycançılıq ideologiyası təşkil edir. Tarixi-xronoloji ardıcıllıq gözlənilməklə elmi-müqayisəli təhlil tədqiqatın əsas metodudur. Tədqiqat zamanı tarixi müqayisə, sistemli təhlil, kompleks yanaşma metodlarından istifadə olunmuşdur. Toplanmış faktlar və materiallar ümumiləşdirilmiş və müqayisəli təhlilə cəlb edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq Məmməd Səid Ordubadinin yaradıcılığı etnoqrafik tədqiqata cəlb edilmişdir. Ədibin yaradıcılığının tədqiqi Şimali və Cənubi Azərbaycanın etnoqrafiyasının bütöv şəkildə öyrənilməsi, orta əsrlər, XIX əsrin sonu - XX əsrin əvvəlləri milli etnoqrafiyamızın, mədəni irsimizin, məişət və mədəniyyətimizin tarixi-etnoqrafik baxımdan araşdırılması sahəsində yenilikdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycan etnoqrafiyasının, eləcə də ayrı-ayrı bölgələrimizin etnoqrafiyasının öyrənilməsi üçün böyük əhəmiyyət daşıyır. M.S.Ordubadinin əsərlərinin etnoqrafik tədqiqi nəticəsində əldə edilmiş biliklər Azərbaycan etnoqrafiyasına dair əsərlərin, dərslik və metodiki vəsaitlərin yazılmasında istifadə oluna bilər. Müasir dövrdə milli adət-ənənələrimizin daha dərindən öyrənilməsi və hətta bərpa edilməsi üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası.** Problemin əsas elmi nəticələri müəllifin müxtəlif nəşrlərdə çap olunmuş məqalələrində, beynəlxalq konfrans və simpoziumlarda etdiyi çıxışların tezislərində əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, mənbəşünaslıq bazası, mövzunun öyrənilmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası, dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"Təsərrüfat məişəti və maddi mədəniyyət"** adlanır. M.S.Ordubadinin əsərləri Azərbaycanın təsərrüfat məişəti, maddi mədəniyyət və s. məsələlərlə bağlı etnoqrafik materiallarla zəngindir. O, əkinçilərin üzləşdiyi çətinlikləri çox gözəl bilmiş və təsvir etmiş, kotan, əkin-biçin, xırmanın döyülməsi, sarıbuğda, arpa, çuval, xəlbir barədə məlumat vermişdir.

M.S.Ordubadi Azərbaycanda oturaq və köçmə maldarlığı təsvir etmişdir. Onun təsvirlərindən aydın olur ki, əhalinin yaylağa köçməsi sadə bir təsərrüfat fəaliyyəti deyil, əhalinin maddi və mənəvi həyatı, etnik-dini dünyagörüşü ilə sıx bağlı olmuşdur.

Ədib Ordubadda ipəkçilik təsərrüfatının vəziyyəti, şəhərin iqtisadi vəziyyəti, burada kiçik kustar sənaye müəssisələrinin yaranması, ticarətin inkişaf etməsi barədə də maraqlı məlumatlar vermişdir. Onun əsərində təsərrüfatın müxtəlif sahələri, o cümlədən yardımçı təsərrüfat olan ovçuluq haqqında məlumat verilir, Naxçıvanda geniş yayılmış "dalva" adlanan ovçuluq üsulunu təsvir edir.

M.S.Ordubadinin roman və pyeslərində, publisistik əsərlərində Azərbaycanın yaşayış məskənləri və evlərindən, nəqliyyat vasitələrindən, geyimlər və bəzəklərdən, yeməklər və içkilərdən bəhs olunur.

M.S.Ordubadinin roman və pyeslərində, publisistik əsərlərində Azərbaycanın şəhər (Təbriz, Bakı, Gəncə və s.) və kəndləri haqqında məlumatlar əsərin süjet xəttində, tarixi hadisələrin inkişafı fonunda təqdim olunmuşdur. Onun yaradıcılığında, yaşayış məskənləri və evləri, o cümlədən "tənəbi" yaşayış ev tipi, evlərin daxili quruluşu, "ayıbalası" kərpici kimi inşaat materialları, "həşti" qapı, "daqqılbab", anaxtar kimi ev əşyaları və alətləri, yollar barəsində

məlumatlar xüsusi maraq doğurur. M.S.Ordubadinin əsərlərində daxili ev səhmanı, ev avadanlıqları da öz əksini tapmışdır. Pərqu balış, ipək döşək, cecim, kənarəli yorğan, tiyan, qulplu qazan, çərxi tas, şüşə güləbdan, xalça, kənarə, kəlləyi, çılçıraq, şamdan, çaqqı piçaq, gördan təsvir olunmuşdur.

M.S.Ordubadi nəqliyyat vasitələri, karvanlar, karvanların mühafizəsi, faytonçular, faytonlar və s. haqqında da məlumat vermişdir.

Ordubadinin əsərlərində Azərbaycanın kişi və qadın baş geyimləri, paltarları, qadın bəzəklərinin təsviri, izahı geniş yer tutur. Yazıçı dövrün xüsusiyyətlərindən irəli gələrək obrazlarının geyimlərinin hər bir detalına diqqət yetirmiş, qəhrəmanlarının siyasi, dini, mədəni dünyagörüşünü, sosial statusunu daha təsirli şəkildə oxucuya çatdırmaq üçün baş geyimləri və bəzəkləri daha tez-tez və detallı şəkildə əks etdirmişdir. Ordubadinin əsərlərində əksər hallarda qadın geyim və bəzəkləri bir-birini tamamlayan şəkildə təqdim olunur, yazıçı sanki bir rəssam kimi əsərin qadın obrazlarını əlvan boyalarla rəngləyir, obrazı təsvir edərkən tirmə çəpkən, almaz və yaqutdan toxunmuş kəmər, saçındakı badam şəkilli almaz cıqqa, topuqlarındakı inci xalxallar, almaz ayparalar haqqında danışır.

M.S.Ordubadinin əsərlərində orta əsrlərdə, eləcə də XIX-XX əsrlərdə məşhur olan ipək parça, Şirvan ipəyi, al atlaz, qumaş və s. parça növləri, tuman, şalvar, don, köynək və s. kimi geyimlər haqqında məlumatlar öz əksini tapmışdır. Etnoqrafik baxımdan maraq doğuran bu materiallar yazıçının Azərbaycan xalqının geyim mədəniyyəti ilə yaxından tanış olduğunu, hər bir parça və geyim növündən istifadənin xüsusiyyətlərini bildiyini təsdiqləyir. M.S.Ordubadi geyimlərin mahiyyətindəki daha bir maraqlı məsələni ortaya çıxarır. Əvvəlki əsrlərdə olduğu kimi, XIX-XX əsrlərdə də geyimlər bir şəxsin təkcə sosial statusunu deyil, eləcə də dini inanclarını, yeniliyə olan münasibətini ortaya çıxarır.

M.S.Ordubadi müxtəlif əsərlərində yağlı büryan, fisincan, aş, çilov, bozbaş, dolma, bozqovurma, küftə, şorba kimi yeməklərin adını çəkir, xalqımızın süfrə mədəniyyətində bu yeməklərin xüsusi yer tutduğunu yazır. Onun yaradıcılığında dəfələrlə müxtəlif dövrlərə aid süfrələr, yeməklər, xidmət geniş şəkildə təsvir

edilmişdir. M.S.Ordubadinin əsərlərindən görünür ki, maddi mədəniyyətin mühüm ünsürlərindən biri olan Azərbaycan mətbəxi qədim tarixə malik olub tərkibinin zənginliyinə və müxtəlifliyinə görə fərqlənmişdir.

Dissertasiyanın "**Ailə və ailə məişəti**" adlanan II fəsli beş bölmədən ibarətdir. İlk növbədə qeyd etmək lazımdır ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın şair və yazıçılarının, mütəfəkkirlərinin, o cümlədən M.S.Ordubadinin əsərlərində önə çıxan mövzulardan biri qadın azadlığı məsələsi olmuşdur. Onun ədəbi-publisistik yaradıcılığa başladığı mərhələ Azərbaycanda dövrün sosial-siyasi, mədəni şərtləri altında qadına, qadın azadlığına, təhsilinə münasibətin ciddi şəkildə dəyişməyə başladığı dövr idi. M.S.Ordubadinin etnoqrafik irsində qadının ailədə, cəmiyyətdə vəziyyəti özünəməxsus yer tutmuş, onun yaradıcılığında qadın azadlığı probleminə qadın - islam dini müstəvisində deyil, qadın - cəmiyyət müstəvisində baxılmışdır. M.S.Ordubadi mollanəsrəddinçilik ənənəsinə uyğun olaraq, qadınların inkişafında təhsilin yerini xüsusi qiymətləndirir, cəmiyyətdə qızların dünyəvi təhsilinə laqeyd yanaşmanı ciddi şəkildə tənqid edirdi. Yazıçı əsərlərində müsəlman ölkəsində qadın azadlığının həyata keçməsinin yollarını aramış, qadın təhsili, qadının mülkiyyət hüququ və s. məsələlərdə özünü göstərən problemləri qadın hüquqsuzluğu kimi tənqid etmişdir. Ordubadinin yaradıcılığında qadın azadlığı məsələsində yaşmaq, çadra, hicaba münasibətini birmənalı şəkildə müsbət və ya mənfi qiymətləndirmək düzgün olmazdı. Bunu dövrün sosial-siyasi münasibətləri, dini-mənəvi dəyərləri ilə əlaqələndirmək daha düzgün olardı.

M.S.Ordubadinin yaradıcılığında ailə və ailə məişəti ilə bağlı məsələlər geniş şəkildə öz əksini tapmışdır. Yaşadığı dövrdə sadə azərbaycanlı ailəsinin, qohum-qonşunun, kəndin, elin-obanın həyat tərzini, insanlar arasında münasibətləri müşahidə edən yazıçı ailə-nikah məsələsinə xüsusi diqqətlə yanaşmış, yaradıcılığının əsas mövzularından birinə çevirmişdir.

Dövrünün digər mütərəqqi ziyalıları kimi M.S.Ordubadi ailəyə cəmiyyətin əsası kimi baxmış, azad, inkişaf etmiş cəmiyyətin yaradılması üçün yüksək səviyyəli ailə qurulmasını, yüksək bilikli,

dünyagörüşlü övladların tərbiyə olunmasına mühüm yer vermişdir. Onun əsərlərində ailə məişətində mənfi rol oynayan məsələlər xüsusi tənqid hədəfinə çevrilmişdir. Müəllifin, xüsusilə, iri həcmli əsərlərində, pyes və romanlarının süjet xəttində ailə məişəti, nikah münasibətləri, toy, uşaqların tərbiyəsi və s. məsələlər xüsusi yer tutur. Bir sıra əsərlərinin düyün nöqtəsi məhz ailə-nikah münasibətləri ilə bağlıdır. M.S.Ordubadi əsərlərində “köhnə dünya ilə təzə dünyanı” ailə-nikah münasibətlərində birləşdirir. Erkən nikah, nikahagirmə forması olan siğənin faciəli mahiyyəti, qızın zorla qaçırılması və ya könüllü qoşulub qaçması problemləri, ikiarvadlılıq və s. məsələlər əsərlərdə geniş şəkildə əks edilmişdir. M.S.Ordubadi əsərlərinin təhlili, eləcə də etnoqraflarımızın apardığı tədqiqatlar göstərir ki, ikiarvadlılıq, çoxarvadlılıq, siğə, qız qaçırma, qızların erkən yaşda ərə verilməsi və s. kimi məsələləri geniş əhali kütləsinə aid etmək düzgün deyildir. Onun əsərlərində nikah məsələlərində özünü göstərən neqativ halların əsas günahkarları obrazların dili ilə tənqid olunur, yaxıd tənqid hədəfinə çevrilən obrazlar özləri danışıqları, söhbətləri ilə ifşa olunurlar.

M.S.Ordubadinin əsərlərində varlı və kasıb toyları, hökmdar toyları yazıçı təxəyyülü ilə təsvir edilsə də daha çox etnoqrafik müşahidələr xarakteri daşıyır. Əsərlərdə toy mərasimi, musiqi, rəqqasələr, cariyələrin iştirakı, məşşatələrin gəlinləri bəzəməsi, ənlik, kirşan, sürmə kimi kosmetik vasitələrdən istifadə olunması öz əksini tapır. M.S.Ordubadinin etnoqrafik irsində toyun hiss və həyəcanının, toyun müxtəlif elementlərinin dəqiqliklə təsvir edilməsinin elmi əhəmiyyəti vardır.

Yaradıcılığı boyu gənc nəslin tərbiyəsi məsələsinə xüsusi diqqət yetirən M.S.Ordubadinin əsərlərində uşaqların tərbiyəsində təhsil məsələsi öndə gəlir, o, Mollanəsrəddinçilik ənənəsinə uyğun olaraq gənc nəslin təhsilinə qarşı çıxanları ciddi şəkildə, onların öz dili ilə tənqid atəşinə tutur. M.S.Ordubadi öz övladlarına yüksək Avropa təhsili verən, vətənpərvər övladlar yetişdirən valideynləri təqdir edir, yüksək tərbiyə verilməsini rəğbətlə təsvir edir, ümumiyyətlə, uşaqların milli kökümüzə və adət-ənənəmizə hörmət ruhunda böyüməsi, ədəb-ərkan qaydalarına yiyələnməsi, layiqli vətəndaş kimi yetişməsi onun yaradıcılığında xüsusi yer tutur.

M.S.Ordubadinin əsərlərində dini təziyələrə, qəbristanlıqların təsvirinə, yas mərasimlərinə yer verilmişdir. M.S.Ordubadinin yaratdığı müsbət obrazların bir çoxunun həyatı faciələrlə bitir. Müəllif yas mərasimlərini hiss və həyəcanla təsvir etmişdir. Bundan başqa, müxtəlif dini təziyələr və qəbristanlıqların təsvirində də yas mərasimləri öz əksini tapmışdır. Ordubadi xüsusi ilə Təbrizin qəbristanlıqlarını geniş şəkildə təsvir etmiş, səndəl ağacı, qəbir daşları barədə izahat vermişdir. Yazıçı yas mərasimlərini, qəbristanlıqları təsvir etməklə kifayətlənməmiş, xalq adət və qaydalarının mahiyyətini də izah etmişdir.

Dissertasiyanın III fəsli "**Mənəvi mədəniyyət**" adlanır. M.S.Ordubadi təkcə yazıçı kimi deyil, bir etnoqraf kimi Azərbaycan xalqının mənəvi dünyasına dərindən bələd olmuşdur. Onun yaradıcılığında bayramlar (Novruz, Ramazan), mərasimlər (Məhərrəmlik və s.) öz əksini tapmış, bir çox hallarda felyetonlarda tənqidi yanaşma üstünlük təşkil etsə də, iri həcmli əsərlərdə bu bayram və mərasimlər etnoqrafik cəhətdən izah və təsvir olunmuşdur.

Ordubadinin əsərlərində Novruz bayramı ilə bağlı maraqlı məlumatlar öz əksini tapmışdır. Xalqımızın hələ orta əsrlərdə bu bayramı təntənə ilə qeyd etməsini yazıçı yüksək sənətkarlıqla qələmə almışdır. Ordubadinin Novruz bayramı ilə bağlı müşahidələrinin mühüm bir cəhəti odur ki, yazıçı həm Şimali, həm də Cənubi Azərbaycanda əhalinin həyat tərzi, yaşayışı, eləcə də xalq bayram və mərasimlərinin keçirilməsi ilə yaxından tanış olmuşdur. Onun Novruz bayramı ilə bağlı məlumatlarını Azərbaycan səciyyəli etnoqrafik materiallar hesab etmək mümkündür. M.S.Ordubadinin Novruzla bağlı "balığın dönməsi" ilə ilin təhvil olunması və s. kimi məlumatlar etnoqrafik ədəbiyyatda da öz təsdiqini tapır. Yazıçı Ramazan bayramını, Məhərrəmlik ayını həyatda baş vermiş hadisələrin fonunda izah edir, mərsiyəçilik, ağlaşma üzrə peşəkarlaşmış yaşayış məntəqələri barədə məlumat verir.

M.S.Ordubadinin 1905-ci il inqilabına qədərki şeirlərində əsas ideya mədəni geriliyə qarşı mübarizə - qəflət, cəhalət, mövhumat və avamlığın tənqidi, eyni zamanda elmin, maarifin, qabaqcıl mədəniyyətin təbliği olmuşdur. Yazıçı məktəblərdə kiçik yaşlı

uşaqlara müasir elmlərdən dərs keçməyə, dərviş nağılına qulaq asmaq əvəzinə elm, mərifət, sənət dalınca getməyə, qədim əfsanələrə qafilanə inanmaq yerinə müasir elm və texnikanın ecazkar nailiyyətləri ilə tanış olmağa dəvət edir, şairləri aşiqanə macəraları dönə-dönə təkrarlamaqdansa, xalqa fayda verəcək mövzularda yazmağa çağırırdı.

M.S.Ordubadinin yaradıcılığında din və din adamlarına münasibəti özünün xüsusiyyətlərinə görə bir neçə qrupda təsnifatlaşdırmaq mümkündür. Birincisi, XX əsrin əvvəllərində Azərbaycan mətbuatında, publisistikasında, ədəbiyyatında, eləcə də ictimai-siyasi həyatında özünü göstərən tendesiya ilə bağlı məsələlərdir.

XX əsrin əvvəllərində dinin deyil, din adamlarının tənqidi özünü daha çox göstərirdi. Xalqın həyat tərzi, məişəti, ailə-nikah münasibətləri kimi məsələlərdə, cəmiyyətin inkişafında müəyyən hallarda mənfi rol oynayan din adamlarının tənqid olunması M.S.Ordubadinin fəal şəkildə qoşulduğu Mollanəsrəddinçilik məktəbinin, XX əsrin əvvəllərinin bədii-publisistikanın xüsusi diqqət yetirdiyi məsələlərdən idi.

Cənubi Azərbaycanda başlanan, bütün İranı bürüyən Məşrutə hərəkatında din adamlarının oynadığı mənfi rolu qabardan M.S.Ordubadinin yaradıcılığında özünü göstərən ikinci tendensiya isə sovet dövrünün ideoloji prinsiplərindən irəli gələn dinsizlik, antiislam ideoloji xətti ilə bağlı idi. Bir çox məsələlərdə artıq M.S.Ordubadi dövrün ideoloji prinsiplərindən kənara çıxa bilməmiş, din və din adamları onun əsərlərində sərt şəkildə tənqid olunmuşdur.

Yaradıcılığının sonrakı illərində, daha dəqiq desək, II Dünya müharibəsi illərindən başlayaraq, M.S.Ordubadinin yaradıcılığında dinin, din adamlarının tənqidi kifayət qədər səngimişdir. M.S.Ordubadinin yaradıcılığını tədqiq edərkən onun İslam dini və təriqətləri ilə bağlı geniş məlumatlı olduğu aydın şəkildə ortaya çıxır. O, əsərlərində İslam dininin tarixi, yayılması, Azərbaycanda İslam dininin rolu məsələlərinə daha çox diqqət yetirmişdir. Bu tendensiya həm 1920-ci ilədək, həm də ondan sonrakı dövrdə davam etmişdir. O, İslam dini, təriqətlə bağlı fikirlərini xüsusi ilə tarixi romanlarında geniş və məzmunlu şəkildə şərh etmiş, Azərbaycanı,

İranı bürümüş təriqətçilik və mövhumatın təhlükəli tərəflərini izah etmişdir.

M.S.Ordubadinin inqilabi-demokratik yaradıcılığa başlaması məhz XX əsrin ilk onilliyinə təsadüf edir. Onun da təmsil olunduğu Mollanəsrəddinçilər çarizmin milli müstəmləkə zülmünə, ictimai ədalətsizliyə və istismarçılara qarşı çıxır, Azərbaycan xalqına siyasi azadlıqlar və hüquq bərabərliyi tələb edirdilər.

Ordubadinin əsərlərində təlim-tərbiyə, elm, ictimai inkişaf, sosial tərəqqi məsələləri geniş şəkildə öz əksini tapmışdır. Onun keşməkeşli həyatı, ağır zəhməti, sürgün, mübarizələrlə dolu tale yolu əsərlərində bədii inikasını tapmışdır. Dövr və həyat sonrakı illərdə Ordubadinin dünyagörüşündə, ideoloji baxışlarında müasir dövrün reallıqları baxımından heç də qəbul olunmayan tendensiyalar yaratmışdır. Buna baxmayaraq, Ordubadinin şeirləri, satirik şeirləri, felyetonları, mənzum hekayələri, mənsur hekayələri, pyes və romanları XX əsrin əvvəllərində Azərbaycan xalqının inkişafında özünü göstərən ənənələri əks etdirir. Xüsusi ilə XX əsrin ilk onilliklərində Ordubadinin yaradıcılığında Azərbaycan xalqının milli dünyagörüşünün, milli ideyasının inkişafının əksini görürük.

Məmməd Səid Ordubadi əsərlərində xalqın maariflənməsi məsələsi diqqət mərkəzində qoyulur. O, bütün mənfi halların təqsirini millətin mövhumat girdabına düşməsində və mütiliyində görürdü. Xalqın düşdüyü bu ağır vəziyyətdən çıxış yolunu isə ancaq maarifçilikdə axtarırdı.

“Molla Nəsrəddin” ədəbi məktəbinin əsas azərbaycançı nümayəndəsi olan Məmməd Səid Ordubadi bütün yaradıcılığı boyu vətən və hürriyyət ideyasının tərənnümçüsü, təbliğatçısı olmuş, XX əsrin əvvəllərində Cənubi Azərbaycanda və eləcə də Şimali Azərbaycanda baş verən tarixi hadisələr onun əsərlərində öz əksini tapmışdır. Məşrutə hərəkatında olduğu kimi, 1905-1906-cı illər erməni-müsəlman davasının əksində vətənpərvərlik ruhu özünü göstərir. “Qılınc və qələm”, “Dumanlı Təbriz”dən fərqli olaraq, “Gizli Bakı”, “Döyüşən şəhər” və “Qanlı illər” romanlarından ibarət trilogiyasında bolşevizmə, sovet hakimiyyətinə rəğbət açıq ifadə olunsa da M.S.Ordubadinin “inqilab səlnaməçiliyi”nin mahiyyətində millilik durur, milli tərbiyə, milli inkişaf məsələləri önə çəkilir.

M.S.Ordubadi ədəbiyyatı, tarixi, dinlər tarixini dərindən bilməklə yanaşı, xalqın həyatında mühüm yer tutan musiqi, rəqs, oyun və əyləncələri incəlikləri ilə öyrənmiş və təsvir etmişdir. Onun əsərləri cariyə, mütrüb, musiqi alətləri, xanəndələr, ifaçılar barədə məlumatları, çövkan, dübbə oyunları barədə təsvirləri orta əsrlər, eləcə də XX əsrin əvvəllərində xalqın mənəvi mədəniyyətini etnoqrafik baxımdan təsvir etməyə imkan verir.

Dissertasiya işinin **"Nəticə"** hissəsində isə tədqiq edilən mövzuya aid materiallara yekun vurulmuş və çıxarılan əsas müddəalar, nəticələr ümumiləşdirilmişdir. M.S.Ordubadinin etnoqrafik irsi Azərbaycan etnoqraflarının uzun illər apardığı tədqiqatlarla, etnoqrafik, yazılı məlumatlarla təsdiqlənir. Əsərlərindəki etnoqrafik materiallara əsasən M.S.Ordubadini təkcə yazıçı kimi deyil, eyni zamanda bir xalqşünas kimi səciyyələndirmək mümkündür. Dissertasiyadan aydın olur ki, yazıçı təsərrüfat məişətinə və maddi mədəniyyətin inkişafına tarixi proseslər müstəvisində baxmışdır və baş verən dəyişiklikləri üzə çıxarmışdır. Dssertasiyada M.S.Ordubadinin əsərlərindəki ənənəvi milli geyimlərin tədricən dəyişməsi prosesi haqqında da məlumat öz əksini tapmışdır. Süjet xəttinə görə, XIX və XX əsrin əvvəlləri ilə birbaşa bağlı olan əsərlərdə milli geyimlərin öz yerini müasir geyimlərə verməsi prosesi izlənilir. Eyni zamanda M.S.Ordubadinin əsərlərində ailədaxili münasibətlər, uşaqların tərbiyəsi və təhsili, ictimai tərbiyə, qonaqpərvərlik, xalq bayramları, xalq oyunları və s. məsələlər yazıçı təxəyyülündən keçsə də təsvir olunan hadisələrin tarixinə uyğun olaraq Azərbaycan xalqının etnoqrafiyasını tam əks etdirir. Ümumiyyətlə, Məmməd Səid Ordubadinin yaradıcılığında Azərbaycan xalqının zəngin tarixini, etnoqrafiyasını, mədəniyyətini, adət-ənənələrini, azadlıq mübarizəsini əksi onun azərbaycançılıq mövqeyində durduğunu aydın göstərir.

Beləliklə, M.S.Ordubadinin əsərləri dərin məna və yüksək bədii məzmun daşımaqla yanaşı, Azərbaycan xalqının etnoqrafiyasını öyrənmək üçün qiymətli mənbədir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında "tənəbi" tipli yaşayış evi haqqında (Tarixi-etnoqrafik tədqiqat). AMEA Məruzələr, № 2, 2014, s.51-54.
2. M.S.Ordubadinin yaradıcılığında qadın azadlığı və gender münasibətləri haqqında. AMEA Xəbərlər. Tarix, fəlsəfə və hüquq seriyası, №1, 2014, s.158-164.
3. Устное народное творчество и труды классиков Азербайджанской литературы как источники историко-этнографического исследования. Bakı Avrasiya Universiteti, "Sivilizasiya" jurnalı, № 5, 2015, s.117-122.
4. M.S.Ordubadi yaradıcılığında milli kimliyin ifadəsi. "21-ci əsrin pəncərəsindən Mədəniyyət və Kimlik" adlı Beynəlxalq Simpozium. Bakı, 2016, s.8-12.
5. M.S.Ordubadi yaradıcılığının Azərbaycan xalqının milli irsinin öyrənilməsi üçün əhəmiyyəti. VIII. Uluslararası Türk Kültürü, Sanatı Ve Kültürel Mirası Koruma Sempozyumu/Sanat Etkinlikleri. Konya, 10 fevral 2016, s.835-840.
6. Некоторые вопросы Азербайджанской семьи и семейного быта в трудах известного писателя М.С.Ордубади. Гілея. Науковий вісник. Випуск 123 (№ 8). 2017, s.138-141.
7. M.S.Ordubadi yardıcılığındakı Azərbaycan musiqisi, milli rəqs, oyun və əyləncələr haqqında etnoqrafik tədqiqat. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, № 4, Bakı, 2017, s.294-298.
8. M.S.Ordubadinin əsərlərindəki xalq bayramları və mərasimlərə dair tarixi-etnoqrafik tədqiqat. AMEA Xəbərlər. İctimai elmlər seriyası, № 4, 2017, s.51-56.
9. M.S.Ordubadinin əsərlərində milli geyim və bəzəklərin təsviri haqqında tarixi-etnoqrafik tədqiqat. AMEA Tarix institutu. Elmi əsərlər. № 68, Bakı, 2017, s.231-243.

**Р.Г.Раджабли**

# ЭТНОГРАФИЯ АЗЕРБАЙДЖАНА В ТВОРЧЕСТВЕ М.С.ОРДУБАДИ

## РЕЗЮМЕ

Диссертация, представленная на соискание ученой степени доктора философии по истории, посвящена исследованию вопросов этнографии Азербайджана в творчестве М.С.Ордубади.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении нашли отражение актуальность темы исследования, определены хронологические рамки, источниковая база, степень изученности, цель и задачи, научная новизна, практическая значимость, апробация и структура диссертационной работы.

В первой главе "Хозяйственный быт и материальная культура", состоящей из двух подглав, этнографически исследованы земледелие, скотоводство, поселения и традиционные жилища, транспортные средства, одежда и украшения, пища и напитки.

Во второй главе "Семья и семейный быт", состоящей из пяти подглав, нашли отражение вопросы роли женщины в обществе, гендерные отношения, вопросы семьи и брака, воспитания детей, свадебные традиции, похоронные обряды.

Третья глава "Духовная культура" состоит из четырех подглав и посвящена исследованию народных праздников, игр и развлечений, религии, национальной музыки.

В заключении обобщены поставленные автором цели и задачи, сформулированы основные научные выводы.

**R.G.Rajabli**

## AZERBAIJAN ETHNOGRAPHY IN M.S.ORDUBADI CREATIVITY

## SUMMARY

The thesis presented for the degree of PhD in history is devoted to the investigation of the Azerbaijan Ethnography in M.S.Ordubadi's creativity.

Dissertational work consists of the introduction, three chapters, conclusion and the bibliography.

In the introduction, the relevance of the research theme was reflected, the chronological scope of the research, the source base, the degree of study, the purpose and objectives, the scientific novelty, the practical significance of the study, as well as the approbation and structure of the thesis were determined.

In the first chapter "Economical Life and Material Culture", consisting of two sub-chapters, arable farming, cattle breeding, settlements and traditional dwellings, folk transport, clothing and ornaments, food and drinks have been investigated.

In the second chapter "Family and Family Life", consisting of five sub-chapters, the problems of women's freedom and gender relations, family-marriage relations, weddings, the upbringing of children, the ceremony of mourning have been investigated.

The third chapter "Spiritual Culture" consists of four sub-chapters and is devoted to the study of folk festivals, religion, national upbringing and the problems of social development, music, folk games and entertainment.

The conclusion summarizes the goals and tasks set and the main scientific conclusions are formulated.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**РЕНА ГАЗАНФАР кызы РАДЖАБЛИ**

# ЭТНОГРАФИЯ АЗЕРБАЙДЖАНА В ТВОРЧЕСТВЕ М.С.ОРДУБАДИ

5102.01 – Этнография и этнология

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2018**